**Psixoloji rəy**

*2002-ci il təvvəlüdlü X sinif şagirdi Əli Məmmədov (ad şərtidir) haqqında psixoloji rəy.*

Aparılmış psixoloji testlər, metodika və yeniyetmə üzrə müşahidələr əsasında aşağıdakıları qeyd etmək olar.

**1. Şəxsiyyət xüsusiyyətləri:** Enerjili, fəal, müstəqil və qətiyyətli oğlandır. Liderlik xüsusiyyətlərinə malikdir. Ünsiyyətcildir, təşkilatçılıq qabiliyyəti yüksək səviyyədədir. Emosional baxımdan sabit, realist, məqsədyönlüdür və iradəlidir. Yaxın məqsədi və uzaq perspektivi dəqiq müəyyənləşdirməyi xoşlayır. Tənhalığı sevmir, empatiya hissi güclüdür.

**2. İntellektual inkişafı:** Raven metodikasının nəticəsinə görə, Fərhadın inkişaf səviyyəsini orta qiymətləndirmək olar.

**3. Peşəyönümü.** Fizika, kimya, təsviri incəsənət, pedaqogika sahəsinə qabiliyyəti var, ona "işarə sistem tipi" uyğun gəlir. Bu isə onun rəqəmlər, kodlar, hərflər, notlar və jestlərə meyilli olduğunu göstərir.

Testin nəticələrinə görə Fərhada aşağıdakı peşələri seçmək məsləhət görülmür: Menecer, iqtisadçı, hüquqşunas və s.

Sosiometrik müayinənin nəticəsinə görə, Fərhad səbirlidir, kollektivdə təşəbbüskarlıq göstərir, olduqca ünsiyyətcildir. Bu xüsusiyyətlərinə görə istənilən kollektivdə özünü rahat hiss edir.

**Tövsiyələr.** Müəllimlər onun təşkilatçılıq meyillərini inkişaf etdirsələr və rəğbətləndirsələr, lider ola bilər, lakin nəzarət etmək lazımdır.